# Xallı pələng libaslı Məhəmməd son nəfəsinə qədər mərdliklə vuruşub

**Vətənə tuşlanan güllələri sinəsi ilə qarşılayan oğullarımızdan biri də Səmədov Məhəmməd Niman oğludur. O, 13 iyun 2001-ci ildə Pirşağı qəsəbəsində anadan olub. 10 saylı sanatoriya tipli internat məktəbini bitirdikdən sonra peşə məktəbində təhsil alaraq xəzinədarlıq sənətinə yiyələnib. Məktəbi fərqlənmə şəharətnaməsi ilə tamamlayıb. Arzusu stomatoloq olmaq idi. İdmanın güləş növü ilə məşğul olurdu. Bir neçə uğurlara imza atmışdı. İki dəfə yarışların yüksək pilləsində qərarlaşmış və diplomla mükafatlandırılmışdı.**



Anası Gülçöhrə xanım deyir ki, Məhəmməd böyüyün-kiçiyin yerini bilən, ağıllı, vətənpərvər, səmimi, mehriban övlad kimi tərbiyə almışdı. O, düzlüyü, doğruluğu, mənəvi saflığı həyatının mənası hesab edirdi.

Məhəmməd 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Cocuq Mərcanlıdakı "N" saylı hərbi hissədə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan ordusunun təxribatları genişləndə xallı pələng libaslı Məhəmməd hirsindən yerə-göyə sığmır, "qana qan", "savaşa savaş" deyərək özləri ilə ölüm-qan gətirən mənfur düşmənlərə qarşı döyüşə atılıb. Özü kimi qeyrətli oğullarımızla birlikdə düşmənlərin başına od ələyib. Füzuli və Cəbrayılın rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsində fəal iştirak edib.

Döyüşlərdə göstərdiyi rəşadətə görə komandiri tərəfindən 2 tərifnamə alıb və döyüşçü qardaşı Bəylər ilə birliokdə qısamüddətli ezamiyyətə buraxılıb.

Atası qurban kəsib. Ən böyük arzusu Şuşanın işğaldan azad olunmasında şəxsən iştirak etmək olub. Lakin namərd düşmən gülləsi onun arzusunu gözündə qoyub. Məhəmmədin son döyüşü Hatrut uğrunda gedən savaş olub. Ölümündən qabaq evlərinə qısa məktub yazıb. Məktubda yazılır: "Atama, anama, qohumlara salam gönrərirəm. Mən yaxşıyam. Düşmən bizim qarşımızda tab gətirməyib geri çəkilir. İnşaallah sağ-salamar gələrəm. Vətən torpağının azad olunmasında iştirak etməyimdən şərəf duyuram. Kişinin birinci vəzifəsi Vətənini qorumaqdır".

Məhəmməd 7 oktyabr 2020-ci ildə Hadrutda düşmən hücumunun qarşısını almaq üçün son nəfəsinə qədər vuruşub. Qarşı tərəf böyük itki verərək geri çəkilməyə məcbur olub. Düşmən mərmilərindən biri ürəyi vətən məhəbbəti ilə döyünən bu igid əsgərimizin həyatına son qoyub. O, vətən torpağının hər yerindən görünən şəhidlik zirvəsində qərarlaşıb. Məzarı Pirşağı qəsəbəsindəki Şuşa qəbiristanlığındadır.

**Cəsur, qorxmaz döyüşçü Məhəmməd Səmədov Füzulinin, Cəbrayılın, Hadrutun işğaldan azad edilməsi medalları ilə, həmçinin Vətən uğrunda medalı ilə təltif olunub.**

**Faiq Şükürbəyli,**
**AJB-nin üzvü**